*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 aprel 2017-ci il № 26 (2143) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir

*Aprel döyüşləri Silahlı Qüvvələrimizin qəhrəmanlıq tarixinə böyük hərflərlə yazıldı. Hərbi qulluqçularımız düşmənin nəzarətində olan və yaşayış məntəqələrimizi təhlükədə saxlayan yüksəklikləri və 2 min hektar ərazini çox qısa müddətdə düşməndən təmizlədilər və həmin mövqelərdə möhkəmləndilər.*



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev aprel döyüşlərinin ildönümü ərəfəsində hərbi əməliyyatların bir qrup iştirakçısı ilə keçirdiyi görüşdə bir daha həmin hadisələri müxtəlif aspektlərdən geniş təhlil etdi və Azərbaycan Ordusunun fəaliyyətinə öz qiymətini verdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllilə bağlı Azərbaycanın mövqeyini bir daha bəyan etdi.

Hər şeydən öncə döyüşlər zamanı həlak olmuş Azərbaycan övladlarının əziz xatirəsini yad edən dövlət başçısı həmin hadisələrin məhz Ermənistanın genişmiqyaslı təxribatı ucbatından baş verdiyini, Azərbaycan Ordusunun əks-hücum əməliyyatı keçirdiyini və düşmənə sarsıdıcı zərbələr endirdiyini qeyd etdi: "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir".

Ali Baş Komandan ordumuzun bölmələrinin döyüş meydanında göstərdiyi bacarığı və şücaəti xüsusi olaraq vurğuladı: "Aprel döyüşləri, - mən bunu əvvəllər də qeyd etmişdim, - hərbi dərsliklərə salınmalıdır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bir daha onu göstərdi ki, biz bu vəziyyətlə barışmayacağıq. Onu göstərdi ki, xalq-iqtidar birliyi bu gün Azərbaycanda yüksək səviyyədə təmin olunur, möhkəmlənir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün həmişə olduğu kimi birinci yerdə duran prioritet məsələdir".

Aprel döyüşləri və onun nəticələri barədə düşmən ölkədə özlərinə uyğun şərhlər verilməsinə, məğlubiyyətə uğramış Ermənistan ordusunun simasını öz cəmiyyətləri qarşısında müdafiə cəhdlərinə də dövlətimizin başçısı münasibət bildirdi: "İndi bəziləri müxtəlif versiyalar, fərziyyələr irəli sürürlər ki, Azərbaycan əməliyyat keçirməyi planlaşdırırdı, o da sonra dayandırıldı və sair. Birincisi, biz nəyi etmək istəmişiksə, onu da etmişik. Əks-hücum əməliyyatında qarşımızda hansı hədəflər durmuşdusa, biz o hədəflərə də çatdıq. Bu gün hərbçilər və beynəlxalq mütəxəssislər bilirlər ki, əldə etdiyimiz strateji mövqelər tamamilə vəziyyəti dəyişdirib. Əgər aprel döyüşləri zamanı genişmiqyaslı əməliyyat keçirmək fikrində idiksə, biz öz hərbi potensialımızdan istifadə edərdik. Bunlar sirr deyil. Burada hər şey beynəlxalq monitorinq altındadır. Bilirlər ki, bizim uzaqmənzilli raketlərimizin, pilotsuz döyüş aparatlarımızın gücü nədən ibarətdir. Biz onlardan, demək olar ki, istifadə etmədik. Amma əgər istifadə etsək, işğal olunmuş torpaqlarda düşmənin daşı-daş üstdə qalmayacaq".

Belə bir deyim var ki, ordu ilə xalq bir olarsa, basılmaz olar. Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı öz qüdrətli Silahlı Qüvvələrinə inanır və daim ona dəstəkdir. Prezident İlham Əliyev həmin döyüşlər zamanı xalqımızın mətinlik göstərdiyini də vurğuladı: "Biz bu döyüşlər zamanı və döyüşlərdən sonra xalqımızın qəhrəmanlığını gördük. Ermənistan həmişə olduğu kimi, döyüş meydanında məğlubiyyətə uğrayarkən mülki əhaliyə atəş açır. Bu dəfə də belə oldu. Bizim yüzlərlə kəndlimizin evləri dağıdıldı, bir neçə mülki şəxs həlak oldu. Ancaq təmas xəttinə yaxın yerlərdə yaşayan insanlarımız, vətəndaşlarımız çox böyük cəsarət göstərmişlər. Biri də yerindən tərpənmədi. Öz evlərini, kəndlərini tərk etmədilər".

Aprel döyüşləri düşmən ölkəyə sübut etdi ki, Azərbaycanın qüdrətli ordusu var və işğal faktı ilə heç vaxt barışmayacaq. Bu vacib məqama diqqəti çəkən dövlət başçısı hərbçilərlə görüşündə dedi: "Aprel döyüşləri, demək olar ki, onların ideoloji əsaslarını dağıtdı. Bu gün Ermənistan cəmiyyəti sarsıntı, təşviş içindədir. Artıq vəziyyətə daha praqmatik baxımdan yanaşan qüvvələr açıq-aydın bildirirlər ki, əgər Azərbaycan ilə münasibətlər yoluna qoyulmasa, Ermənistanın gələcəyi yoxdur. Mən bunu dəfələrlə demişəm ki, Ermənistanın bir ölkə kimi bundan sonra da yaşaması üçün yeganə yol qonşularla münasibətləri tənzimləməkdir. Bunun üçün də yeganə yol var. Bu yol ondan ibarətdir ki, bizim işğal edilmiş torpaqlardan işğalçı qüvvələr qeyd-şərtsiz və dərhal çıxmalıdır. Bu baxımdan bu döyüşlərin çox böyük təsiri oldu".

Qüdrətli Silahlı Qüvvələrə malik olması münaqişənin həllilə bağlı Azərbaycanın ən önəmli arqumentlərindən biri hesab edilir. Ona görə Prezident İlham Əliyev bundan sonra da ordu quruculuğuna yüksək diqqət göstəriləcəyini dedi: "Aprel döyüşlərindən sonra çox böyük məbləğdə yeni kontraktlar imzalanmışdır və ən müasir, yüksək dəqiqliyə, dağıdıcı qüvvəyə malik olan silahlar sifariş edilmişdir. Onların bir hissəsi Azərbaycana gətirilib. Sadəcə Ermənistan rəhbərlərindən fərqli olaraq, biz bunu təbliğat naminə nümayiş etdirmirik. Amma lazım gələrsə və vaxt gələndə, lazım bildiyimiz anda biz bir daha göstərəcəyik ki, nəyimiz var. Qoy, onlar bilsinlər ki, bu gün Azərbaycan Ordusu həm döyüş qabiliyyəti, vətənpərvərlik ruhu və maddi-texniki təminat baxımından dünya miqyasında güclü ordular sırasındadır".

Dövlət başçısı çıxışının yekununda əminliklə vurğuladı: "Biz işğal edilmiş torpaqlara qayıdacağıq. Bu, bizim əsas vəzifəmizdir. Necə ki, keçən il azad edilmiş torpaqlarda bu gün bayrağımız dalğalanır, hələ də işğal altında olan bütün başqa torpaqlarımızda da Azərbaycan bayrağı qaldırılacaqdır".

**"Azərbaycan Ordusu"**

# Azərbaycanla Səudiyyə Ərəbistanı arasında hərbi-texniki əməkdaşlıq məsələləri müzakirə olunub



Aprelin 5-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İki Müqəddəs Ocağın xadimi, Səudiyyə Ərəbistanı Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səud ilə görüşüb.

Görüş zamanı tərəflər ölkələrimiz arasında ikitərəfli əlaqələr və əməkdaşlıq istiqamətlərini, xüsusilə də hərbi sahədə əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Görüşdə, həmçinin Səudiyyə Ərəbistanının Dövlət naziri, Nazirlər Kabinetinin üzvü doktor İbrahim bin Əbdüləziz Al-Assaf, Mədəniyyət və İnformasiya naziri doktor Adel bin Zaid Altoraifi və Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı Fövqəladə və Səlahiyyətli səfiri Rasim Rzayev də iştirak ediblər.

* * *

Səudiyyə Ərəbistanında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Krallığın Vəliəhdinin varisi, Nazirlər Şurası sədrinin müavini, Müdafiə naziri şahzadə Məhəmməd bin Salmanla görüşüb.

Görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki əməkdaşlıq, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Müdafiə naziri Səudiyyə Ərəbistanına səfəri çərçivəsində bu ölkədə fəaliyyət göstərən İslam Hərbi Koalisiyası Mərkəzində də olub.

Azərbaycan nümayəndə heyəti qlobal terrorizmə qarşı mübarizəni əlaqələndirən Mərkəzlə tanış olub və qurumun fəaliyyəti barədə ətraflı məlumatlandırılıb.

* * *



Səudiyyə Ərəbistanında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov bu ölkənin Silahlı Qüvvələri Baş Qərargah rəisinin müavini general-leytenant Faiyad bin Hamed Al Rovaili ilə görüşüb.

Tərəflər iki dövlətin Silahlı Qüvvələri arasında əlaqələrin perspektivlərini müzakirə edib və hərbi əməkdaşlıq məsələlərini nəzərdən keçiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Dövlətçiliklə, dövlətin ərazi bütövlüyünün təmin olunması ilə bağlı olan heç bir tarixi hadisə unudulmur. Belə hadisələr həm kitablarda, həm də yaddaşlarda yaşadılır. Müharibə hələ başa çatmayıb. Müharibəni torpaqlarımızı işğaldan azad etməklə Azərbaycan Ordusu başa çatdıracaq. Aprel döyüşləri təsdiqlədi ki, Azərbaycan əsgəri buna qadirdir.*

# Apreldə tarix yazanlar



Ulu öndər Heydər Əliyevin siyasətini bütün sahələrdə uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğunda əsaslı dönüş yaradılmasına, Silahlı Qüvvələrimizin nizami ordu kimi formalaşmasına nail olundu. Son vaxtlar həyata keçirilən islahatlar ordumuzun döyüş qabiliyyətinin yüksəldilməsini təmin etdi, müxtəlif qoşun növlərinin iştirakı ilə keçirilən irimiqyaslı təlimlər onun gücünü, qabiliyyətinin səviyyəsini təsdiqlədi. Silahlı Qüvvələrimiz müasir döyüş texnikaları ilə, atıcı silahlarla yüksək səviyyədə təmin edilir. Yeni, müasir hərbi hissələr istifadəyə verilir, şəxsi heyət üçün bütün gərəkli şərait yaradılır. Bu proses uğurla davam etdirilir.

Silahlı Qüvvələrimizin döyüş hazırlığı ilə bir sırada mənəvi-psixoloji hazırlığı da yüksəkdir. Ali Baş Komandanın, Müdafiə nazirinin tələb və göstərişləri əsasında keçirilən irimiqyaslı təlimlər şəxsi heyətin yüksək döyüş ruhunu da təsdiqlədi. İndi ən müasir silah və texnika ilə təmin edilən, hərtərəfli təchizata malik olan Azərbaycan Ordusunun Cənubi Qafqazda ən güclü ordu olduğunu beynəlxalq analitiklər və ekspertlər də etiraf edirlər.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun döyüş bölgələrində olması, əsgərlərlə bilavasitə söhbətlərdə görüşməsi Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında mühüm təsirli vasitədir. Azərbaycan Ordusunun Cənubi Qafqazda ən güclü ordu olduğunu Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev də qeyd edərək deyib: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır". Bu fikir cəmiyyətin orduya inamının təzahürüdür. 2016-cı ilin aprelində bir daha təsdiqləndi ki, xalq ordusuna güvənir.

2016-cı ilin aprelində Ermənistan silahlı birləşmələrinin təxribat-diversiya qrupları ön xətdə irimiqyaslı təxribat törətmək istəyəndə Azərbaycan Ordusunun birləşmələri əks-hücumla ilə bunun qarşısını aldı. Bu döyüşlərdə düşmən xeyli canlı qüvvə, döyüş texnikası itirdi. Mövqe məğlubiyyətinə uğrayan düşmənin ən böyük itkisi isə şəxsi heyətinin qorxuya düşməsi, Azərbaycan əsgərinin güclü olduğunu dərk etməsidir.

Ali Baş Komandanımızın dediyi kimi, "...Ordu hissələrimiz keçən ilin aprel ayında Ermənistanın silahlı birləşmələrinin təxribatlarının qarşısını aldı, düşmənə sarsıdıcı zərbələr endirdi. Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının bir hissəsi işğaldan azad edildi. O ərazilərdə Azərbaycan bayrağı dalğalanır. O ərazilərdə minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir. Aprel döyüşləri həm bizim parlaq qələbəmizdir, həm bir daha Azərbaycan dövlətinin gücünü göstərdi". Aprel döyüşləri Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməyə qadir olduğunu təsdiqlədi. Dövlət başçısı bu məqama xüsusi önəm verib: "Bu, bir daha dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərir. Bir daha onu göstərir ki, biz istənilən vaxtda məsələni hərbi yolla həll edə bilərik".

Bu döyüşlərdə ən böyük qələbə ruhumuzun, xalqın inamının qələbəsi oldu. Xalq qəti şəkildə inandı ki, sülh danışıqları baş tutmasa, ordumuz torpaqlarımızı işğaldan azad edəcəkdir.

Aprel döyüşlərində minlərlə hektar ərazi düşməndən azad edildi, indi bir neçə əhəmiyyətli yüksəklikdə, bu sıradan Lələtəpədə, Bayraqtəpədə Azərbaycanın Dövlət bayrağı dalğalanır.

Aprel döyüşlərində bir məqam unudulmayacaq: zabit-əsgər münasibəti. Talış kəndi yaxınlığında gedən döyüşdə mayor Samid İmanov yaralanır. Əsgər ona yardım etmək istəyir. Bu məqamda zabit hiss edir ki, bir qədər aralıda döyüşən əsgərlərdən biri yaralanıb. "Ona yardım edin", - deyir. Tərəddüd edən əsgəri məcbur edir ki, yaralı əsgəri döyüşdən çıxartsın. Mayor isə döyüşü son gülləsinə kimi davam etdirir. Bu fakt təsdiqləyir ki, Azərbaycan Ordusunun zabiti əsgər üçün, Vətən üçün canını əsirgəmir - şəhid olur. Azərbaycan Ordusunun hər əsgəri, hər zabiti üçün bir ucalıq var: Vətən. Hər biri üçün bir and yeri var: Vətən andı. Əsgər də, zabit də o ucalıq, o müqəddəslik üçün canından keçir. Bunu işğalçı dövlət də bilir. Ona görə də Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Ermənistan təşviş içindədir...

Düşmən də, bu münaqişənin sülh yolu ilə həlli missiyasını öz üzərinə götürmüş beynəlxalq təşkilatlar da gördü ki, Azərbaycan əsgəri döyüşəcək, torpaqlarımızı işğaldan azad edəcək. Hər zabit, hər əsgər Ali Baş Komandanın istənilən əmrini yerinə yetirməyə hazırdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda nitqi Azərbaycan Silahlı Qüvvələrinin hər bir zabitinə, əsgərinə verilən dəyərdir: "Bizim istəyimiz ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağını dalğalandırmaqdır. Budur, bizim məqsədimiz və biz bu məqsədə doğru irəliləyirik. Aprel döyüşləri bu istiqamətdə çox önəmli tarixi addım olmuşdur..."

Bu döyüşlərdə ən böyük qələbə ruhumuzun, xalqın inamının qələbəsi oldu.

Ermənistanın silahlı birləşmələri ciddi itki verib. Ermənistanın itkilərini bəzi erməni saytları, ekspertlər, siyasətçilər, sabiq hərbçilər ictimailəşdirir, Ermənistanda xalq rejimə qarşı çıxır. Artıq Ermənistan aydınlığıyla dərk edir ki, məğlub olub. Sülh danışıqlarından imtina etsə, döyüşlərdə mütləq məğlub olacaq. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "İşğalçı rejim, Ermənistan rəhbərliyi bunu nə qədər tez dərk etsə, bu, onlar üçün o qədər də yaxşı olacaq".

Aprel döyüşlərində Qarabağ müharibəsi əlilləri də, tələbələr də döyüşən əsgərlərin sırasında olmaq üçün müvafiq dövlət qurumlarına müraciət edirdi. Bu istək xalqın iradəsinin, qətiyyətinin, Vətən sevgisinin təsdiqi idi.

Ali Baş Komandanın dediyi bir fikir bu döyüşlərin həm hərbi, həm də mənəvi-psixoloji dəyərini təsdiqləyir: "Aprel döyüşləri dərsliklərə salınmalıdır". Dərsliklərə salınacaq bu tarixi Azərbaycan əsgəri yaradıb.

Prezident İlham Əliyevin "Bizim istəyimiz ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, işğal altında olan bütün torpaqlarda Azərbaycan bayrağını dalğalandırmaqdır. Budur, bizim məqsədimiz və biz bu məqsədə doğru irəliləyirik" fikrini döyüş əmri bilən Azərbaycan əsgərinin yaradacağı ən möhtəşəm əsər yaxın vaxtlarda Cıdır düzündə tamamlanacaq!

**"Azərbaycan Ordusu"**

*Ordu və cəmiyyət*

# Zəfər sənin zəfərindi, Azərbaycan əsgəri!..

## Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində keçirilən vətənpərvərlik tədbirindən qeydlər



Sərin aprel günündə arzuladığımız yaz ovqatıyla tədbirə gələn zabitlərin, kursantların doğma baxışlarından Azərbaycan əsgərinə ünvanlanmış

Bu ovqatla açılacaq
səhər sənin səhərindi.
Tarix üçün tarix yazan
zəfər sənin zəfərindi! -

misralarını ötən ilin aprelindən bu yana ürək-ürək döyünən, könül-könül gəzişib kəlmə-kəlmə öyünən bir qürurun zərrəsi bilirəm. Yaxın vaxtlarda daha əzəmətlə, daha möhtəşəmliklə, daha duyğusallıqla yaşanılacağı üçün. Bu qürur Böyük Qələbənin qüruru olacaq!..

Tədbir aprel zəfərinin ildönümünə həsr olunub. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, Azərbaycan Yazıçılar Birliyi ilə keçirilən bu dəyərli tədbirdə Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev çıxış edərək aprel döyüşlərinin mahiyyətindən, nəticələrindən danışdı, Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anara, xalq şairi Nəriman Həsənzadəyə, sədrin müşavari Rauf Aslanova, Azərbaycan Yazıçılar Birliyi vətənpərvərlik komissiyasının sədri Şahin Musaoğluna təşəkkür etdi:

- Bu tədbir, sizin bu tədbirdə iştirakınız təsdiqləyir ki, Səməd Vurğun demişkən, bu gün ədəbiyyatımız da müsəlləh əsgərdir. 1994-cü ildən bəri Ermənistan rəhbərliyi münaqişənin sülh yolu ilə həllindən yayınır, status-kvonu saxlamağa çalışır. Beynəlxalq təşkilatların müdaxiləsi ilə aparılan danışıqlarda müəyyən irəliləyişə meyil hiss ediləndə, Ermənistan təmas xəttində təxribatlar törədir. 2014-cü ilin iyul-avqust aylarından təxribatların coğrafiyasını da, tezliyini də genişləndirirdi. Hər dəfə də təxribatların qarşısı Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin cavab atəşləri ilə alınırdı. 2016-cı il martın sonlarında Ermənistan silahlı qüvvələri daha geniş miqyasda təxribatlar törətməyə cəhd göstərdi. Cəbhə xəttinə yaxın kəndlərdə yaşayan əhali üçün ciddi təhlükə yarananda Azərbaycan Silahlı Qüvvələrinin bölmələri təxribatların qarşısını aldı, əks-hücumla düşmənin mühəndis-istehkam baxımından möhkəmlənmiş sədlərini dağıtdı, Lələtəpə yüksəkliyi, Talış kəndi yaxınlığında Bayraqtəpə yüksəkliyi və onların ətrafı düşməndən azad edildi. Bu qələbə Azərbaycan Ordusunun gücünün, qüdrətinin, xalqla ordunun birliyinin, milli-xəlqi ruhumuzun məğlubedilməzliyinin təsdiqi oldu.

General-mayor Rasim Əliyev daha sonra bildirdi ki, silahlar, texnikalar nə qədər müasir olsa da, yetərli deyil, onların istismarına mükəmməl yiyələnən, xalqını, Vətənini sevən əsgər amili də vacib şərtlərdəndir. Aprel döyüşləri təsdiqlədi ki, yüksək döyüş hazırlığına malik ordumuzun şəxsi heyətinin mənəvi hazırlığı da yüksək səviyyədədir. Xalqın orduya inamını artıran bu döyüşlərdə şəhidlərimiz də oldu. Onların dəfnində şəhid anasının dediyi "Mənim oğlum indi xalqın oğludur" - kəlmələri mənəvi dəyərlərimizin bəşəriliyinin, yaşarılığının təsdiqidir...

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev əmin olduğunu bildirdi ki, çağdaş Silahlı Qüvvələrimizin zəfərlərindən, torpaqlarımızı işğaldan azad edəcək əsgər və zabitlərimizdən dəyərli əsərlər yazılacaqdır.



Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar çıxışında dedi:

- Xalq ilə ordu həmişə sıx əlaqədə olub, daha doğrusu, xalq özünü həmişə ordunun dayağı bilib. Böyük Vətən müharibəsi illərində də beləydi. Neçə-neçə şair, yazıçı döyüşən ordu sıralarında olub, döyüşüb, yazıçılar, şairlər dəfələrlə döyüşən azərbaycanlılarla səngərlərdə, döyüşdə görüşüb. Bu görüşlərdən sonra neçə-neçə dəyərli əsər yaranıb. İndi də belədir. Ədəbiyyatımız həmişə ictimai-siyasi hadisələrin iştirakçısı olub. Azərbaycanda müstəqillik hərəkatı genişlənəndə də, 1990-cı ilin yanvarında da yazıçılarımız, şairlərimiz xalqın istəyinin ifadəçisiydi. İndi də belədir. Onlar Dağlıq Qarabağda və Ermənistanla sərhəd rayonlarda döyüşlər başlayanda dəfələrlə döyüş bölgələrinə gedib, əsgərlərlə nəfəs-nəfəsə dayanıb, söhbətləşib. Bu söhbətlər yeni əsərlər üçün vacib həyati mövzu olub.

Azərbaycan Yazıçılar Birliyinin sədri "Öz ordusunu təmin və təchiz etməyən xalq düşmənin ordusunu təmin və təchiz edir" kəlamını xatırladaraq dedi:

- Xalqımız ordusuna həmişə dayaqdır. Bu sıradan yazıçılar, şairlər həmişə ordu ilə birdir. Söz ordunun mənəvi güvənc yerinə dönüb. Mənəvi dayaq olma da böyük təsirə malikdir. Yazılan irili-xırdalı əsərlər Azərbaycan əsgərinin mənəvi hazırlığında mühüm rol oynayıb. Bundan sonra yazılacaq əsərlər də bu missiyanın davamı olacaq.

Xalq yazıçısı xalq şairi Rəsul Rzanın 1942-ci ildə yazdığı "Azərbaycanlı döyüşçülərə" şeirini oxudu və bildirdi ki, belə şeirlər əsgərin döyüş ruhunu, qələbə əzmini yüksəldir. Bu şeir indi də öz poetik missiyasını davam etdirir. Azərbaycan əsgərinin döyüş, qələbə əzmindən qürurlanıram.

O, əmin olduğunu bildirdi ki, Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad etməyə qadirdir.



Azərbaycan Yazıçılar Birliyi vətənpərvərlik komissiyasının sədri Şahin Musaoğlu çıxışında qələbəyə mənəvi-psixoloji amilin də güclü təsiri olduğunu bildirərək dedi:

- Söz həmişə əsgər üçündü, əsgər kimidi. Məqamında söz də əsgərləşməlidi. Aprel döyüşləri təsdiqlədi ki, sözümüz əsgərimizin ruhunun keşiyindədi. Vətənpərvərlik komissiyası bu prosesə böyük önəm verir. Əsgər bilir ki, təkcə torpağı qorumur, o, həm də milli varlığımızın keşikçisidi, millətin vicdanının, millətin ruhunun keşikçisidi, milli mentalitetimizin keşikçisidi. Söz belə oğulların xidmətindədi. Aprel döyüşləri haqqında yazılan və yazılacaq əsərlər döyüşlərin özünü də, Azərbaycan əsgərinin obrazını da yaradacaq, yaşadacaq...



Xalq şairi Nəriman Həsənzadənin dediyi fikirlər də bu fəaliyyətin yaşarılığını təsdiqləyir:

- Ordu həssas mövzudur. Həssas mövzuya həssaslıqla yanaşılmalıdır. Çağdaş ədəbiyyatımız da bu tezisə ciddi əməl edir. Ədəbiyyat olmuşları yazmaqla kifayətlənməməlidir, cəmiyyətin əsgərin dünyaduyumunda görmək istədiklərini də yazılacaq əsərlərə mövzu etməlidir. Onda ordu ilə ədəbiyyatın əlaqəsi arzulanan səviyyədə olacaqdır. General-mayor Rasim Əliyevin qeyd etdiyi kimi, əsgər amilinə ədəbiyyatda da böyük sayğılarla yanaşılacaqdır!..

Son dövrlər oxuduğum əsərlərin Azərbaycan əsgərinin dünyaduyumuna daha həssas çalarlar artırdığı gümandan daha çox həqiqətdir. Azərbaycan əsgəri niyə səngərdə olduğunu aydınlığı ilə dərk edir. Bilir ki, orda müvəqqəti dayanıb. Torpaqlarımızı işğaldan azad etməklə səngərini dövlət sərhədlərimizə köçürəcək. Zənnimcə, ədəbiyyat üçün başlıca vəzifə məhz bu məqamı sözə (əsərə) gətirməkdir. Bugünkü tədbir belə deməyə əsas verir ki, çağdaş ədəbiyyatımız bu missiyanı da arzuladığımız səviyyədə yerinə yetirəcəkdir.

Tarixin qılınc dövrünü - Səfəviləri, Şah İsmayıl Xətaini xatırlayıram. Qılıncın kəsərini sözün (şeirin) kəsəri tamamlayırdı; sözün (şeirin) dediyini qılınc təsdiqləyirdi, qılıncın təsdiqlədiyini söz (şeir) tarixləşdirirdi. Qılınc ordunu təmsil eləyirdi, söz (şeir) ədəbiyyatı (deməli, xalqı) bu ünsiyyət xalqla ordunun birliyinin təminatçısıydı.

İndi də belədir. Sülh danışıqları nəticə verməsə, torpaqlarımızı işğaldan ordumuz azad edəcək - ordu torpaqlarımızın, ədəbiyyat ordunun şəxsi heyətinin mənəvi dünyasının keşiyindədi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi "Aprel döyüşləri dərsliklərə salınmalıdır" kəlamı yeni-yeni sənədli, bədii, publisistik əsərlərin yazılmasına stimul olacaq. Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq olaraq, Müdafiə Nazirliyi ilə Azərbaycan Yazıçılar Birliyinin bu formatda əlaqəsi Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığında nə qədər gərəklidir!..

...Azərbaycan Silahlı Qüvvələrinin bölmələri ötən ilin aprelində zəfər qazandı. Bu, Böyük Qələbənin başlanğıcıdır. Azərbaycan əsgəri daha böyük qələbələr qazanacaq. Zəfər Azərbaycan əsgərinin zəfəri olacaq! Həm də yaxın vaxtlarda!..

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin ifasında səslənən mahnılar (bütövlükdə ədəbi-bədii kompozisiya) aprel döyüşlərinin yaşarılığına köklənmişdi. Şərti sərhədin qarşısında oxunan mahnı işğalda qalan torpaqlarımızın harayıydı elə bil. Bu haray az sonra "Qarabağ şikəstəsi"nin ecazkarlıq fonunda hərbi səhra mundirində dövrələşənlərin qurduğu qala, bu qalanın ucalığında dalğalanan bayrağımıza dönür. "Qala - ruhumuzun yenilməzliyinin rəmzidi" - düşündüm...

Tədbiri ümumilikdə Azərbaycan əsgərinə müraciət bildim: zəfər sənin zəfərindi. Yaxın vaxtlarda böyük zəfər də sənin olacaq!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Aprel döyüşləri ilə əlaqədar Silahlı Qüvvələrdə silsilə tədbirlər keçirilib

*Müdafiə nazirinin tapşırığına əsasən, Silahlı Qüvvələrdə 2016-cı il aprel döyüşlərinin birinci ildönümü ilə əlaqədar "Aprel döyüşləri bizim şanlı qələbəmizdir" devizi altında silsilə hərbi vətənpərvərlik tədbirləri keçirilib. Tədbirlər planında Müdafiə Nazirliyi rəhbərliyinin, döyüş iştirakçılarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə şəhidlərin məzarlarının ziyarəti, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin aprel döyüşləri haqqında tezislərindən irəli gələn tələblərin şəxsi heyətə aşılanması və mövzuya dair məşğələlərin, Azərbaycan Yazıçılar Birliyi üzvlərinin, ziyalıların hərbi qulluqçularla görüşlərinin, elm, mədəniyyət, incəsənət və ədəbiyyat xadimlərinin iştirakı ilə "Aprel döyüşlərinin hərb tariximizdə yeri və əhəmiyyəti" mövzusunda seminar və "dəyirmi masa"lar təşkil olunub. Tədbirlərdə ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.*





## "Biz ordumuzla fəxr edirik"

2016-cı il aprelin ilk günlərində cəbhə xəttində vəziyyətin kəskinləşməsi nəticəsində atəşkəs pozuldu. Etiraf etmək lazımdır ki, atəşkəs imzalandığı 24 il ərzində atışmalar baş versə də, gərginlik bu səviyyəyə çatmamışdı. Ermənistan silahlı birləşmələrinin martın sonlarında ordumuzun mövqelərinə, kənd və qəsəbələrimizə artilleriya silahlarından ağır zərbələr endirməsi cavabsız qala bilməzdi.

İntensiv döyüşlər dünya informasiya agentliklərində yuxarı sətirlərdə yer aldı, kütləvi informasiya vasitələrində hərbi əməliyyatlara müxtəlif yozumlar verildi.

Yaşayış məntəqələrimizi atəş altında saxlayan yüksəkliklərdəki düşmən mövqelərini birdəfəlik susdurmaq üçün ordumuzun bölmələri aprelin ilk günlərində hərəkətə keçdi. Cəsur Azərbaycan oğulları Tərtər, Goranboy və Füzuli rayonları istiqamətində qısa bir vaxtda vacib mövqeləri ələ keçirdilər.

Aprel döyüşlərində Azərbaycan zabitləri əsl fədakarlıq göstərərək şəxsi heyətə nümunə oldular. Bu uğurda onların zəhməti böyükdür. Neçə-neçə zabit və əsgərimiz ciddi xəsarət alsa belə, şücaət və fədakarlıq göstərdi.

Dövlət tərəfindən yüksək mükafatlara layiq görülmüş zabit və əsgərlərimizin bu fədakarlığı, mətinliyi ordumuzun real gücündən və sarsılmaz iradəsindən xəbər verir.

Həlak olmuş zabit və əsgərlərimizin hər biri isə Azərbaycan üçün əvəzolunmaz itkidir. Onlar Vətən torpaqlarının azad edilməsi uğrunda canlarından keçdilər. Təsəlliverici məqam ondadır ki, onların qanı yerdə qalmadı, düşmən qat-qat artıq itki verdi. Ən başlıcası isə, torpaqlarımızın bir qismi düşməndən birdəfəlik təmizləndi.

Əzəli Azərbaycan torpaqlarının 20 ildən artıqdır ki, işğal altında qalması, Ermənistan rəhbərliyinin Minsk Qrupu çərçivəsində danışıqları uzadaraq cidd-cəhdlə status-kvonu saxlamağa çalışması Azərbaycan üçün qəbuledilməz idi. Bununla rəsmi İrəvan Qarabağ probleminin dondurulmuş vəziyyətdə saxlanması, münaqişənin həllinin arxa plana keçirilməsi və beləcə, Azərbaycanın əzəli torpaqlarında yeraltı və yerüstü sərvətlərin vəhşicəsinə talanmasının davam etdirilməsi məqsədini güdürdü. Erməni ideoloqları beynəlxalq vasitəçilərin loyallığından istifadə edərək vəziyyətin dondurulmuş halda saxlanmasını alternativsiz variant hesab edirdilər. Ancaq aprel hadisələri göstərdi ki, Azərbaycan öz torpaqlarını Ermənistana bağışlamaq niyyətində deyil, sülh yolu ilə qaytarılmasa, Azərbaycan Silahlı Qüvvələri güc yolu ilə işğal edilmiş ərazilərimizi düşməndən azad edəcək.

Ötən ilin noyabrında irimiqyaslı təlimlər ərəfəsində cəbhə bölgəsinə səfəri zamanı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cəsur Azərbaycan zabit və əsgərlərilə görüşərkən qürur hissilə bildirmişdi: "Lələtəpə əməliyyatı bizim qəhrəmanlıq rəmzimizdir. Lələtəpə tarixə düşdü. Əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaqdır. Ermənistanın siyasi rəhbərliyi, nəhayət, dərk etməlidir ki, işğalçılıq hərəkətləri onları uçuruma aparır. Azərbaycan gündən-günə güclənir, möhkəmlənir. Bizim güclü potensialımız və güclü ordumuz var. Biz ordumuzla, əsgər və zabitlərimizlə, sizinlə - bax, burada düşmənlə üz-üzə dayanan oğullarımızla fəxr edirik".

Azərbaycan Ordusu, doğrudan da, regionda ən qüdrətli ordudur və təmas xəttində qazandığı uğurları genişləndirməklə işğal edilmiş ərazilərimizi qısa zamanda düşməndən azad edə bilər. Yəni, əslində, bu gün Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmiz üçün ordusu ilə birlikdə Ermənistan əsas maneə deyil. Beynəlxalq aləmdə havadarları olmasa, Silahlı Qüvvələrimiz qısa vaxtda ərazilərimizi işğaldan azad etməyə qadirdir.

Azərbaycan rəhbərliyi qoşunlarımızın modernləşməsinə hər il Ermənistanın dövlət büdcəsindən artıq vəsait xərcləyir. Hərbi hissələrimizin şəxsi heyəti son illərdə alınmış modern silahların istifadə qaydalarını, döyüş taktikasını mükəmməl mənimsəyib və yüksək döyüş ruhuna malikdir.

## "Bir anadır, bir Vətən..."

Aprelin əvvəllərində düşmənin təxribat diversiya qrupunun qarşısı ordumuz tərəfindən layiqincə alındı. Bu zaman qısamüddətli, çevik və mütəşəkkil hərbi əməliyyatlarla düşmənin bir sıra mövqelərini ələ keçirən, hərbi obyektlərini dağıdan, yaşayış məntəqələrimizi işğaldan azad edən müzəffər Silahlı Qüvvələrimizin bölmələri uzun illərdir ki, bu anı gözləyən xalqımızın hədsiz sevincinə, vətənpərvərlik və milli qürur hisslərinin alovlanmasına səbəb oldu.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində də ordumuzun aprel zəfərinin ildönümü ilə bağlı mərasim keçirildi. Tədbirə xüsusi təyinatlı məktəblərin kursantları, hərbi hissələrin, şəhid ailələrinin nümayəndələri, həmçinin aprel döyüşlərinin iştirakçıları qatılmışdılar.

Hərbi vətənpərvərlik tədbiri aprel döyüşlərindən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının iclasında Ali Baş Komandan İlham Əliyevin: "...Bizə qarşı yenə də təxribat törədilərsə, onlar yenə də öz cəzalarını alacaqlar. Bu bir. İkincisi, biz öz torpağımızda vuruşuruq. Biz Ermənistan torpağını işğal etməmişik. Biz öz torpağımızda vuruşuruq. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm", - sözlərinin səsləndirilməsi ilə başladı.

Mərasimdə iştirak edən aprel döyüşlərinin iştirakçılarından biri, birinci qrup müharibə əlili, ehtiyatda olan baş leytenant Səməndər Manafov çıxış edərək bildirdi ki, aprel döyüşləri son illərin ilk irimiqyaslı hərbi əməliyyatı idi. Ordumuz yüksək taktiki-strateji hazırlığı ilə torpaqlarımızın bir hissəsini işğaldan azad etdi. Döyüşlərdə ermənilərin əsgər və zabitlərinin silah sursatlarını qoyaraq qaçmasının şahidi olduq. Qısa zamanda həyata keçirilən uğurlu əks-həmlələrimiz düşmənin çoxlu sayda canlı qüvvəsinin və zirehli texnikasının, habelə hərbi bazalarının məhv edilməsi, strateji əhəmiyyətli bəzi yüksəkliklərin geri qaytarılması ordumuzun gücünün bariz nümunəsidir. Təmas xəttindəki uğurlu əməliyyatlar bir sıra reallıqları da üzə çıxardı. İlk növbədə məlum oldu ki, Azərbaycanın milli maraqlarını daim önə çəkən, mürəkkəb geosiyasi məkanda qətiyyətli, düşünülmüş qərarlar qəbul etmək cəsarəti ilə seçilən qüdrətli siyasi lideri, rəhbəri var. Həmin günlərdə Ali Baş Komandanımızın düşmənin hərbi təxribatlarının qarşısının alınması ilə bağlı qətiyyəti ordumuzun şəxsi heyətində böyük ruh yüksəkliyinə səbəb oldu."

Ehtiyatda olan baş leytenant çıxışının sonunda qeyd etdi ki, döyüşlərdə sağlamlığını itirməsinə baxmayaraq, hər an Ali Baş Komandanın əmrinə müntəzirdir.

- Həqiqi bir qəhrəmanın həyat yoldaşı olmağımla qürur duyuram, - aprel şəhidlərindən biri polkovnik-leytenant Sənan Axundovun həyat yoldaşı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi Nəcibə Axundova çıxışında bildirdi. - Aprel döyüşlərində Sənan kimi vətənpərvər zabitlərimizin şücaəti bir daha sübut etdi ki, Azərbaycanın çox güclü ordusu var. Hər an gözünü qırpmadan, tərəddüd etmədən cəbhəyə gedib canlarını ərazi bütövlüyümüz, suverenliyimiz və azadlığımız uğrunda fəda etməyə hazır olan oğullarımız var. Məhz belə oğulların sayəsində Azərbaycan daim var olacaq!

Şəhidin oğlu Tahir Axundov İlyas Əfəndiyev adına Elitar Gimnaziyanın 9-cu sinif şagirdidir. O da tədbirdə çıxış edərək atası ilə daim fəxr etdiyini bildirdi və gələcəkdə hərbçi olaraq atasının yolunu davam etdirəcəyinə söz verdi. Əlbəttə, qəlbində Vətən, yurd sevgisi olan, ordusu ilə qürur duyan hər bir vətəndaşımız üçün aprel zəfəri son dərəcə şərəfli və qürurvericidir.





Tədbir Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin hazırladığı "Bir anadır, bir Vətən" adlı ədəbi-bədii kompozisiya ilə başa çatdı.

**(Ardı 5-ci səhifədə)**

# Aprel döyüşləri ilə əlaqədar Silahlı Qüvvələrdə silsilə tədbirlər keçirilib

(Əvvəli 4-cü səhifədə)



## Şəhidlər xiyabanında ziyarət

2016-cı il aprelin əvvəllərində cəbhədə baş verən hadisələr ölkədə ciddi canlanmaya səbəb oldu. Xalqımız dünyaya göstərdi ki, torpaqlarımızı düşmən işğalından azad etməyə qadirdir.

Şəhidlərimizin ruhunun yad edilməsi və torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərə həsr edilmiş tədbirlər vətənpərvərlik təbliğatında, gənclərimizin Vətənə sevgisinin formalaşmasında ciddi rol oynayır. Belə tədbirlərdən biri 2017-ci il aprelin 2-də II Şəhidlər xiyabanında keçirildi. Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin Komandanı general-leytenant Ramiz Tahirovun rəhbərliyi ilə bir qrup hərbi qulluqçu aprel şəhidlərinin məzarlarını ziyarət etdi. Bir il öncə düşmən təxribatının qarşısını alarkən şəhid olan pilotlarımız mayor Təbriz Musazadənin, mayor Urfan Vəlizadənin, baş leytenant Əbubəkir İsmayılovun, digər hərbi qulluqçulardan polkovnik-leytenant Murad Mirzəyevin, baş leytenant Mirzə Novruzovun və torpaqlarımızın azadlığı uğrunda şəhid olan oğullarımızın məzarları önünə əklillər qoyularaq tər qərənfillər düzüldü.

Orta məktəb şagirdləri şəhidlərin xatirəsinə həsr olunmuş şeirlər səsləndirdilər. Şəhid mayor Urfan Vəlizadənin qızı, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin şagirdi Zəhra Vəlizadənin skripka alətində ifası ziyarətçilərə kövrək anlar yaşatdı.



## Düşmən üzərində qələbənin başlanğıcı

Ötən ilin aprel döyüşlərinin ildönümü ilə əlaqədar silsilə hərbi vətənpərvərlik tədbirlərinin növbəti ünvanı Şəmkir rayonu olub.

Rayon ictimaiyyətinin və Silahlı Qüvvələrin şəxsi heyətinin iştirakı ilə Heydər Əliyev Mərkəzinin qarşısında keçirilən tədbirdə polkovnik Rasim Manafov çıxış edib. O qeyd edib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin dediyi kimi "aprel döyüşləri tarixdə bizim böyük qələbəmiz kimi qalacaq". Aprel döyüşləri düşmən üzərində böyük qələbənin başlanğıcı olmaqla bərabər, Azərbaycan Ordusunun gücünü göstərdi, şəxsi heyətin özünə inamını və döyüş ruhunu artırdı. Həmçinin xalqımızın öz ordusuna inamını, vətənpərvərlik hissini daha da gücləndirdi. Aprel zəfəri ordu ilə xalq birliyinin təntənəsinə çevrildi.

Tədbirdə Silahlı Qüvvələrin hərbi orkestrinin iştirakı ilə incəsənət ustalarının ifasında vətənpərvərlik mahnıları, ordumuzun qələbəsinə həsr olunmuş nəğmələr səsləndirildi. Xalq artisti, Silahlı Qüvvələrin zabiti Azərinin ifaları alqışlarla qarşılandı.

## Məktəblilər də aprel zəfərini qürurla qeyd etdilər

Naxçıvan Zabitlər Evində 2016-cı ilin aprel döyüşlərinə həsr olunmuş "Ordumuzun zəfəri" adlı hərbi vətənpərvərlik mövzusunda tədbir keçirilib.

Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru Natiq Əhmədov çıxış edərək bildirib ki, ötən il aprelin ilk günlərində həyata keçirilən uğurlu hərbi əməliyyatlarda Silahlı Qüvvələrimizin şəxsi heyəti böyük rəşadət göstərərək düşmənin layiqli cavabını verdi. Bu əməliyyatlarda canından keçərək şəhidlik zirvəsinə ucalan şəhidlərimizin qanı yerdə qalmayacaq.

Əsgər forması geyinmiş gələcəyin Vətən müdafiəçiləri vətənpərvərlik mövzusunda şeirlər səsləndirib, mahnılar ifa ediblər. Tədbirdə uşaq, yeniyetmə və gənclərin fəal iştirakı tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Aprel döyüşlərinə həsr edilmiş slaydlara baxış olub. Tədbir şagirdlərin ifa etdikləri əsgər marşı ilə başa çatıb.

## Şəhidlər ölməz, Vətən bölünməz

Xalqımızın qəhrəmanlıq tarixinə yazılmış 2016-cı ilin aprel döyüşləri şanlı qələbəmizdir. Bu tarixi yaşadan Vətəni, torpağı sevən, ata-babalarımızın qəhrəmanlıq yolunu inamla davam etdirməyə qadir olan igid Vətən müdafiəçiləridir.

"N" hərbi hissəsində Gəncə Mərkəzi Kitabxanası ilə birlikdə aprel döyüşlərinə həsr olunmuş "Şəhidlər ölməz, Vətən bölünməz" adlı "dəyirmi masa" keçirildi.

Mayor İftixar Mehdiyev çıxış edərək bildirdi ki, memarı və qurucusu xalqımızın ümummilli lideri Heydər Əliyev olan Azərbaycan Silahlı Qüvvələri Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində sürətli inkişaf yolu keçərək regionun ən güclü ordusuna çevrilib. "Bu günlər ildönümünü qeyd etdiyimiz aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan Silahlı Qüvvələri düşmənin işğalında olan torpaqları azad etməyə qadirdir."

Gəncə Dövlət Universitetinin dosenti Hüseyn Bəxtiyarov azərbaycanlıların soyqırımı tarixindən, xalqımıza qarşı törədilən faciələrdən danışdı. Qeyd etdi ki, soyqırımı siyasəti həmişə davam etdirilib. "Təəssüf ki, beynəlxalq təşkilatlar, bir çox dünya dövlətləri bu haqsızlığa göz yumurlar. Buna görə də düşmənlər Vətənimizə qarşı həmişə torpaq iddiaları irəli sürürlər. Buna baxmayaraq, xalqımız və onun dəyanətli Silahlı Qüvvələri Vətən torpaqlarını düşmənlərdən azad etməyə qadirdir. Ötən ilin aprel döyüşləri xalqımızla ordunun birliyini yüksək səviyyədə nümayiş etdirdi."

Mərkəzi kitabxananın əməkdaşı Aidə Abdullayeva, baş leytenant Samir Hüseynov, əsgərlər Rəhman Abbaszadə, Ceyhun Nəsirov, əsgər klubunun rəhbəri Müşvif Verdiyev və başqaları da çıxış edərək xalqımıza qarşı törədilən soyqırımı hadisələrindən, Silahlı Qüvvələrimizin gücləndirilməsi yolunda həyata keçirilən islahatlardan danışdılar.

## Ordumuzun parlaq qələbəsi

“Aprel döyüşləri bir daha göstərdi ki, Silahlı Qüvvələrimiz Azərbaycanın işğal altındakı torpaqlarını azad etməyə qadirdir.”

Bu fikir aprelin 4-də Azərbaycan Hərb Tarixi Muzeyində Azərbaycan Ordusunun 2016-cı ilin aprelində cəbhədə düşmən üzərində qazandığı qələbəyə həsr olunmuş "Dördgünlük müharibə: başlanma səbəbləri və nəticələri" mövzusunda "dəyirmi masa"da səsləndirilib.

Tədbir iştirakçıları "Aprel döyüşləri 2016" mövzusunda açılan sərgi ilə tanış olublar.

"Dəyirmi masa"da aprel döyüşlərinə həsr edilən film nümayiş olunub.

"Aprel döyüşləri Azərbaycan Ordusunun yeni parlaq qələbəsidir" mövzusunda məruzə ilə çıxış edən muzeyin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə bu əməliyyatların son illər Silahlı Qüvvələrimizdə aparılan genişmiqyaslı işlərin uğurlu nəticələrini inandırıcı şəkildə göstərdiyini, ordumuzun işğalçı düşmənlə müqayisədə böyük hərbi-psixoloji üstünlüyə malik olduğunu nümayiş etdirdiyini deyib: "Aprel döyüşləri Azərbaycan Ordusunun parlaq qələbəsidir. Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti dördgünlük döyüşlərdə düşmənə göstərdi ki, ordumuz işğal altında olan torpaqları azad etməyə qadirdir".



Bildirilib ki, ötən ilin aprelində Azərbaycan Ordusu düşmən təxribatlarının qarşısını qəhrəmanlıqla alıb, düşmənə sarsıdıcı zərbələr endirib, xeyli canlı qüvvə və texnikasını məhv edib. İşğalçılar Azərbaycanın mövqelərini iriçaplı silahlardan atəşə tutub, təxribat törədiblər. Ancaq Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin sayıqlığı nəticəsində düşmənin təxribatının qarşısı alınıb və bir sıra strateji yüksəkliklər ələ keçirilib. Bu döyüşlərdə Azərbaycan Ordusunun düşmən üzərində həm hərbi, həm də mənəvi baxımından qalib gəldiyinin şahidi olduq. Bu, göstərir ki, əsgərlərimizdə, gizirlərimizdə, zabitlərimizdə Vətənə məhəbbət hissi və döyüş əhval-ruhiyyəsi yüksək səviyyədədir.

"Dəyirmi masa"da muzeyin ekspozisiya hissəsinin rəisi Şəlalə Hüseynovanın "Aprel döyüşləri ərəfəsində məkrli erməni planları", muzeyin baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılovun "Aprel döyüşlərinin başlıca nəticələri" mövzularında məruzələri dinlənilib.

Azərbaycanın Milli Qəhrəmanı Murad Mirzəyevin həyat yoldaşı Fizzə Mirzəyeva tədbirdə çıxış edərək deyib: "Muradın simasında bütün şəhidlərimiz Azərbaycan torpağına, xalqına olan sevgisinə, andına sadiq çıxaraq düşmənə layiqli cavab verdilər. Bizim də borcumuz şəhidlərimizi unutmamaq, onların qəhrəmanlıqlarını gələcək nəsillərimizə aşılamaqdır". O, göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildirib.

"Mənim oğlum bu gün qürurla atasının qəhrəmanlığından danışır. Düşmən aprel döyüşlərindən sonra Azərbaycanın Vətən uğrunda canından keçməyə hazır olan igid oğullarının, hərbçilərinin qəhrəmanlarını bir daha gördü. Oğlum da, mən də Vətən üçün son damla qanımıza qədər döyüşməyə hazırıq. Azərbaycanın qəhrəman övladları həmişə olub, indi də var və olacaq", - deyə aprel döyüşlərində şəhid olan polkovnik-leytenant Sənan Axundovun həyat yoldaşı, Pedaqoji Universitetin baş müəllimi Nəcibə Axundova bildirib.

Aprel döyüşlərinin iştirakçısı kapitan Elmir Abbasov Azərbaycan Ordusunun əsgərlərinin, gizirlərinin, zabitlərinin qəhrəmanlıqlarından, döyüş xatirələrindən danışıb.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Suallar:**
**1. Azərbaycan xanlıqları.**
**2. Rus İmperiyasının Qafqaz istilası. Gülüstan və Türkmənçay müqavilələri.**

**Mövzu:** Azərbaycan xanlıqları. Rus İmperiyasının Qafqaz istilası. Gülüstan və Türkmənçay müqavilələri.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair tarixi və bədii ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirmək tövsiyə olunur.*

*Azərbaycan xanlıqları*

Azərbaycanda Şəki və Quba xanlıqları istisna olmaqla, digər xanlıqlar əsasən Nadir şah Əfşarın 1747-ci ildə qətlindən sonra meydana gəlib.

XVII yüzilin gedişində tədricən dövlət müstəqilliyini itirən Azərbaycanda istiqlal hərəkatı başlandı. Mərkəzi hökumət çıxışları hər dəfə amansızlıqla yatırır, sərt hərbi və inzibati-siyasi tədbirlər həyata keçirirdi. Bütün bunlara baxmayaraq, Azərbaycan dövlətçiliyinin bərpası ideyasını məhv etmək mümkün olmadı. Azərbaycan ərazisində onlarca xanlıq yarandı. Azərbaycan İrandan vahid şəkildə ayrılmayıb xanlıqlara parçalandı. Bu, bir sıra səbəblərlə bağlı idi.

Birinci, mərkəzi hakimiyyətin məqsədyönlü siyasəti müstəqil Azərbaycan dövləti yaratmağı öz üzərinə götürə bilən vahid mərkəzin təşəkkülünə imkan vermədi. Səfəvi dövlətinin inzibati quruluşu buna örnək ola bilər. Bu dövlətin quruluşunda hakimlər tərəfindən idarə olunan "ölkələr" mühüm yer tuturdu. Ən mühüm inzibati idarə sistemi də mərkəzdənqaçma meyillərinin daşıyıcısı idi. Belə bir durum vahid dövlətin mövcud olduğu şəraitdə də xanlıqların təşəkkülü prosesinə rəvac verirdi.

İkinci, XVII yüzilin sonlarından davam edən təsərrüfat geriləməsi şəraitində gələcək xanlıqların ərazisini əhatə edən bölgələr arasında əlaqələr sıx deyildi.

Üçüncü, beynəlxalq aləmdə qüvvələr nisbətinin dəyişməsi, regionda yeni bir mərkəzləşmiş dövlətin yaranması burada marağı olan İran və Rusiyanın mənafeyinə uyğun gəlmirdi.

**Cənubi Azərbaycan xanlıqları**

Güney Azərbaycanda yaranan xanlıqlar arasında Urmiya xanlığı mühüm yer tuturdu. Xanlığın əsasını Nadir şahın əmisi oğlu Fətəli xan Əfşar qoymuşdu.

Təbriz və Xoy xanlıqları Dunbuli tayfasından olan nəslin əlində idi. Çox da böyük ərazi və əhalisi olmayan Qaradağ xanlığının başında Qaradağ tayfalarına başçılıq edən Kazım xan (1747-1752) dururdu. Marağa xanlığı hələ Nadirin sağlığında burada hakim olan Əliqulu xan Müqəddəmin əlində idi. Ərdəbil xanlığını 1792-ci ilədək Nəzərəli xan Şahsevən idarə edib. O, Ərdəbil, Xalxal və Muğandakı şahsevən tayfalarını birləşdirmiş, mahalların etibarlı idarəsini təşkil edə bilmişdi. Nəzərəli xandan sonra oğlu Nəsirəli xanlıq taxtına çıxdı.

Maku xanlığını Bayat boyundan olan Əhməd Soltan (1747-1778), Sərab xanlığını isə Şəqaqi boyundan olan Əli xan (1747-1786) yaratmışdırlar.

Güney Azərbaycan xanlıqları ictimai-siyasi və mədəniyyət mərkəzləri olan şəhərlər ətrafında yaranmışlar. Xanlar başlıca olaraq el-tayfa başçıları arasından çıxırdı.

**Şimali Azərbaycan xanlıqları**

Azərbaycanın cənub-şərqində Talış dağları, Xəzər dənizi və Muğan düzü arasında Talış xanlığı yerləşirdi. Xanlığın banisi Seyid Abbas idi. Onun ölümündən sonra Qara xan hakimiyyətdə olmuşdu (1747-1786). Qara xan yerli hakim təbəqəni özünə tabe etməyə nail oldu, xanlığın mərkəzi Astaradan Lənkərana köçürüldü.

Əski Qarabağ bəylərbəyliyi ərazisində iki xanlıq - Qarabağ və Gəncə xanlıqları yarandı. Mirzə Camal Cavanşir Qarabağı yazır: "Qarabağ vilayətinin sərhədi belədir: cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər Araz çayıdır. İndi (Sınıq körpü) Qazax, Şəmsəddin və Dəmirçi-Həsənli camaatı arasındadır... Şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Şimal tərəfdən Qarabağın Yelizavetpolla (Gəncə ilə) sərhədi Kür çayına qədər Goran çayıdır və Kür çayı çox yerdən (keçib) Araz çayına çatır. Qərb tərəfdən Küşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır".

Mirzə Camal yazır: "Mərhum Nadir şah Qarabağ, Gəncə, Tiflis və Şirvan vilayətlərini aldıqdan sonra, ellər və kəndlər arasında görüb tanıdığı hər bir şücaətli və işgüzar adamı yanına çağırıb, öz yaxın qulluqçuları sırasına alar, onu məvacib, ehtiram və mənsəb sahibi edərdi. O cümlədən ellər arasında Pənahəli bəy Sarıcalı Cavanşir adı ilə şöhrət tapmış, hər işdə fərqlənmiş, ad çıxarmış, müharibə və davada tay-tuşuna üstün gələn və xüsusilə mərhum Nadir Rum əhli qoşunları ilə etdiyi müharibələrdə (XVIII yüzilin 30-cu illərindəki İran-Türkiyə savaşı nəzərdə tutulur) şücaət göstərmiş Pənah xanı da öz yanına apardı". Lakin Muğan qurultayından sonra Nadir onun hakimiyyətini qəbul etmək istəməyən qarabağlılara divan tutmağa, əhalini Əfqanıstan və Xorasana sürgün etməyə başlamışdı. Bu tədbirə etiraz etdiyinə görə Pənahəli bəyin qardaşı Fəzləli xan edam olunmuşdu. Bunu görən Pənahəli bəy şah Xorasanda olduğu zaman, fürsət tapıb bir neçə qohumu və yaxın adamı ilə 1737-1738-ci illərdə Qarabağ vilayətinə qaçdı. Şah onun qaçmasından xəbər tutarkən onu yolda ələ keçirmək üçün ardınca çaparlar göndərdi. Lakin mümkün olmadı. Azərbaycan sərdarına, Gəncə, Tiflis və Şirvan hakimlərinə qəti fərmanlar göndərdi ki, Pənah xanı harda tapsalar, tutub şahın hüzuruna göndərsinlər. Şahın əmri ilə Pənah xanın ailəsini və qohum-qardaşını çox incidib cərimə etdilərsə də fayda vermədi.

Beləliklə, hələ Nadirin sağlığında Pənahəli bəy şah qulluğundan boyun qaçırıb müxalifətə keçmişdi. Nadir şahın ölümündən sonra Qarabağ torpaqlarında müstəqil dövlətin bütün göstəricilərini özündə birləşdirən Qarabağ xanlığı yarandı.

Gəncədən didərgin salınmış Ziyadoğullarının da geri qayıtması üçün yol açıldı. Gəncə xanlığının banisi II Şahverdi xan Ziyadoğlu oldu. O, 1747-ci ildə Gəncəyə gələrək burada hakimiyyətini qurdu.

Naxçıvan xanlığının əsasını isə Kəngərli boyunun başçısı Heydərqulu xan qoymuşdu. Nadir şah Naxçıvanın idarə olunmasına xüsusi diqqət yetirirdi. Şahın ölümündən sonra onun məmurları qovuldu və Naxçıvan müstəqil xanlıq elan edildi.

İrəvan xanlığı Ağrı düzənliyini, Göyçə gölü ətrafı və onunla Dərələyəz arasındakı torpaqları əhatə edirdi. Xanlığın banisi Mir Məhəmməd xan Qacar idi.

Beləliklə, XVIII yüzilliyin 40-cı illərində Azərbaycanın ictimai-siyasi həyatında böyük dəyişiklik baş verdi. İyirmiyədək müxtəlif xanlıq və onlardan asılı olan xırda inzibati-siyasi qurumlar yarandı. Bununla olduqca mürəkkəb, ziddiyyətli və faciəli bir dönüş başlandı. Bu dönüş 1828-ci ilədək sürdü.

**Şimali Azərbaycan xanlıqlarının Rusiya tərəfindən işğalı**

1805-ci ildə İran hakimiyyəti ilə bağlanmış sülh müqaviləsinə əsasən, paytaxtı Şuşa olmaqla Qarabağ, eləcə də Şəki və Şirvan xanlıqları Rusiyaya birləşdirildi. 1806-1813-cü illərdə Rusiya imperiyasının hərbi təcavüzü nəticəsində Bakı, Quba, Gəncə, Talış və Dərbənd xanlıqları Rusiya imperiyasına birləşdirildi. Nəhayət, 1826-cı ildə Rusiya Naxçıvan və İrəvan xanlıqlarını da işğal etdi.

İşğal olunmuş xanlıqların ərazisində özünün hakimiyyətini bərkitməyə çalışan Rusiya İmperiyası, ərazilərə Qacar İrandan və Osmanlı Türkiyəsindən köçən xristian ermeniləri yerləşdirməyə başlamışdır. Bu siyasətin nəticəsində təkcə 1828-ci ildən 1830-cu ilədək təxminən 130 min erməni köçkünü (bunlardan 50 mini Qarabağ xanlığının ərazisində) Azərbaycan xanlıqlarının ərazilərində məskunlaşdırılmışdır.

*Rus imperiyasının Qafqaz istilası Gülüstan və Türkmənçay müqavilələri*

Hər dəfə xalqımızın faciələri, ərazilərimizin işğalı səbəbləri ilə bağlı materialları, əski sənədləri araşdırarkən belə bir qənaət yaranır ki, tariximizin bütün qanlı səhifələri Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsinə səbəb olan Gülüstan və Türkmənçay müqavilələrindən başlayır. Çar Rusiyasının Azərbaycana qarşı ekspansionist siyasəti rəsmən 1804-1813-cü illər rus-İran müharibəsi ilə başlayır. 1805-ci ildə Azərbaycanın Qarabağ və Şəki xanlıqları ilə Rusiya arasında Kürəkçay müqaviləsi imzalanır. Müqaviləyə görə, bu xanlıqlar Rusiyaya ilhaq edilir və müstəqil xarici siyasət yürütməkdən məhrum olur. 1805-ci ilin axırlarına doğru Bakı və Şirvan xanlıqları da işğal edilir. Talış xanlığının işğalı ilə Rusiyanın Şimali Azərbaycanı tamamilə özünə ilhaq etməsi prosesi başa çatır. Bu mərhələ başa çatdıqdan sonra İranın Rusiya ilə müqavilə bağlaması reallaşır və sülh danışıqları başlayır. 1813-cü il oktyabrın 12-də Gülüstan kəndində məşhur Gülüstan müqaviləsi imzalanır. Bu müqavilə Çar Rusiyasının Azərbaycanı işğal etdiyini rəsmən təsdiqləyir.

1722-ci ildə Qarabağdakı erməni məliklər I Pyotru Qafqaza çağırırlar. Bu çağırışdan sonra Pyotr Xəzərsahili torpaqlara işğalçı yürüş edir və həmin əraziləri rus imperiyasına birləşdirir. 1724-cü il noyabrın 10-da I Pyotrun verdiyi fərmana əsasən, ermənilər işğal olunmuş Azərbaycan torpaqlarında yerləşməyə başlayırlar. Rusiya Asiyada maraqları kəsişən Böyük Britaniya və Fransa ilə birləşərək Osmanlı imperiyasının və türk dünyasının şöləsini söndürmək üçün erməniləri alətə çevirdi.

Rusiya Dərbəndi özünə birləşdirdi, Borçalını Gürcüstana, İrəvanı, Zəngəzuru, Göyçəni və Dərələyəzi ermənilərə verdi. Nəticədə Azərbaycan torpaqları hesabına sonralar Ermənistan dövləti yaradıldı.

1828-ci il fevralın 10-da İngiltərənin səfiri MakDonaldın vasitəçiliyi ilə Təbriz yolunun üstündə yerləşən Türkmənçay kəndində I Nikolay ilə Fətəli şah arasında sülh müqaviləsi imzalandı. Bununla da Azərbaycanın işğalı başa çatdı. Müqavilənin 15-ci maddəsinə əsasən, erməni əhalisinin İrandan Cənubi Qafqaza hərəkətinə icazə verildi. Müqavilənin bağlanması münasibətilə dərhal rus toplarından 101 yaylım atəşi açıldı. Ertəsi gün "xoş xəbər"i Aleksandr Qriboyedov Rusiyaya çatdırdıqdan sonra Petropavlovsk qalasında da top atəşləri açıldı, rus xalqı bu münasibətlə təbrik edildi. Bu, o Qriboyedovdur ki, 1818-ci ildə rus missiyasının katibi kimi İrana göndərilir və burada iki il işləyir. 1821-ci ildə İrana qayıtdıqdan sonra general A.Yermolovun komandanlıq etdiyi ordunun diplomatik katibi vəzifəsinə təyin edilir. 1826-cı ildə çar hakimiyyəti tərəfindən dekabristlərin işi üzrə həbs edilir. O, bütün məxfi sənədləri öncədən məhv etdiyindən günahı sübuta yetirilmir. Bu səbəbdən də azadlığa buraxılır və yenidən Qafqaza qayıdaraq burada diplomatik işdə çalışır. 1827-ci ildə Türkiyə ilə İran arasında danışıqlarda vasitəçi kimi çıxış edir. Türkmənçay müqaviləsinin hazırlanmasında iştirak edir. Bundan sonra isə o, Rusiyanın İranda səfiri təyin edilir.

Rus-İran müharibəsində həlledici sonluq olan Türkmənçay müqaviləsi və əsasən, Araz çayı sərhəd olmaqla Azərbaycanın ərazisi şimal və cənub hissələrinə bölündü. Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı, Talış xanlığı, Şərqi Gürcüstan və Dağıstan Rusiyaya təslim edildi.

Gülüstan müqaviləsindən fərqli olaraq, Türkmənçay müqaviləsinin ağır şərtləri daha tez reallaşdı. Yeni işğal olunmuş İrəvan və Naxçıvan xanlıqlarının torpaqları "erməni vilayətləri" elan edildi. Halbuki qədim İrəvan torpaqları lap qədimdən türk-müsəlman yurdu olmuş, düşmən qüvvələri qarşısında möhkəm dayanmışdı. Hətta rus-İran müharibəsində burada yaşayan azərbaycanlılar çarın işğalçı qoşunlarına qarşı qəhrəmancasına döyüşmüşdülər. Lakin ermənilərin xəyanəti üzündən İran həmin müharibədə məğlub olmuşdu.

Ermənilər Türkmənçay müqaviləsinin şərtlərindən çox məmnun idilər. Tarixçilər erməniləri Türkmənçayın övladları adlandırırdılar, çünki Türkmənçay müqaviləsindən əvvəl ermənilər vətənsiz olublar. Erməni tarixçisi Anahid Terminasın qeyd etdiyi kimi, "ermənilər 1917-ci ilədək Qafqazın heç bir məntəqəsində çoxluq təşkil etməmişlər və onların müəyyən bir əraziləri də yox idi".

O vaxtdan bəri Azərbaycan tarixinin hər səhifəsində erməni qanının izi var. Erməni terrorçuları havadarlarına arxalanaraq bütün dövrlərdə Cənubi Qafqazda, o cümlədən Azərbaycanda qan tökmüş, torpaqlarımızı zəbt etmişlər.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Füzulidə “Aprel şəhidlərinə xatirə” abidəsi açılıb

*Azərbaycan Ordusunun ötən ilin aprel döyüşlərində qazandığı qələbə münasibətilə Horadiz şəhərində Müdafiə Nazirliyi və Füzuli rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə zəfər yürüşü keçirilib, "Aprel şəhidlərinə xatirə" abidəsinin açılışı olub.*



Yürüş iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Horadiz şəhərindəki abidəsini ziyarət edərək, önünə tər gül dəstələri qoyublar.

Hərbi orkestrin ifasında təntənəli marşın sədası altında Heydər Əliyev parkından Horadiz-Cəbrayıl avtomobil yolunun kənarında inşa edilən "Aprel şəhidlərinə xatirə" abidəsinə qədər davam edən yürüşdə minlərlə insan, o cümlədən Lələtəpənin azad olunması zamanı sağlamlığını itirən, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə yüksək fəxri ada layiq görülən, orden və medallarla təltif olunan döyüşçülər, şəhid ailələrinin üzvləri iştirak ediblər. Əllərində Lələtəpə uğrunda döyüşlərdə şəhid olanların portretləri və Azərbaycanın Dövlət bayrağını tutan yürüş iştirakçıları "Şəhidlər ölməz, Vətən bölünməz", "Hər şey ordu üçün, hər şey qələbə üçün", "Ali Baş Komandanın əmrlərinə hazırıq" kimi şüarlar səsləndiriblər.



Sonra "Aprel şəhidlərinə xatirə" abidəsinin açılışı olub. Əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin aparıcılığı ilə keçirilən tədbirdə Azərbaycan Ordusunun qüdrətindən, hərbçilərimizin döyüşlərdə göstərdikləri qəhrəmanlıqlardan, xalqla ordunun monolit birliyindən bəhs edilib.

Tədbirdə çıxış edən Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev bildirib ki, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il yanvarın əvvəllərində həyata keçirilən Horadiz əməliyyatı nəticəsində erməni silahlı birləşmələrinin hücumu dayandırılıb və Azərbaycan Ordusu əks-hücuma keçərək qısa müddətdə Füzuli rayonunun 20 Arazboyu kəndini, Horadiz qəsəbəsini və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndini işğaldan azad edib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Ordusu uzun illərdən sonra düşmən üzərində növbəti böyük qələbəni keçən ilin aprelində qazandı. “Bu döyüşlərdə Azərbaycan Ordusu öz gücünü bir daha göstərdi, qələbə qazanmaq əzmini sübut etdi. Bu gün açılışı olan abidə Lələtəpə yüksəkliyinin azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olan Silahlı Qüvvələrimizin 22 nəfər zabit və əsgərinin şərəfinə ucaldılıb. Abidə Füzuli-Cəbrayıl avtomobil yolunun kənarında yerləşir. Zəfərə gedən yol buradan başlayır", - deyə A.Alıyev bildirib.

General-mayor Mais Bərxudarov çıxışında xalqımızın şəhidləri ilə qürur duyduğunu vurğulayaraq deyib: "Şəhidlər bir daha sübut etdilər ki, bu torpaqlar bizimdir. Biz onu azad etməliyik. Şəhid ailələri öz övladlarını Vətən uğrunda qurban verir və "Vətən sağ olsun" deyirlər. Bu gün xalq və ordu bir yerdədir. Bu birliyin sayəsində aprel ayında torpaqlarımızın bir hissəsini işğaldan azad etdik. Gün olacaq ki, biz bütün torpaqlarımızı işğaldan azad edəcəyik".

Tədbirdə çıxış edən Milli Məclis sədrinin müavini Bahar Muradova bildirib ki, bu gün bizim üçün qürur və fəxarət, qələbəyə inam günüdür.



“1994-cü ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Füzuli istiqamətində 22 yaşayış məntəqəsinin işğaldan azad edilməsi tarixə yazıldı. Bu tarixi qələbədən 22 il sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı yenidən qələbə sevinci yaşadı. Bir daha dünyaya sübut edildi ki, bu gün Azərbaycan müasir, inkişaf etmiş, qarşıya qoyulan bütün hədəflərə nail olmağa qadir bir orduya malikdir. Bu ordunun arxasında xalq dayanıb.

Aprel döyüşlərində Azərbaycan Ordusu öz gücünün kiçik bir hissəsindən istifadə etməklə düşməni yerində oturtdu və onlara məğlubiyyətin acısını daddırdı. Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsi uğrunda şəhid olan 22 gəncin açdığı zəfər yolu ilə minlərlə Azərbaycan gənci getməyə hazırdır. Biz üçrəngli bayrağımızı hazırda işğal altında olan bütün yaşayış məntəqələrində qaldıracağıq", - deyə B.Muradova qeyd edib.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova və Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov çıxış edərək 2016-cı ilin aprelində düşmən üzərində qazanılan qələbənin əhəmiyyətindən danışıb, xalqımızın daha böyük qələbələr qazanacağına əminliklərini bildiriblər.

Tədbirdə iştirak edən şəhid ailələrinin üzvlərinə "Lələtəpə fatehləri" kitabı təqdim edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*7 aprel 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 millimetrlik minaatanlardan da (12 mərmi) istifadə etməklə sutka ərzində atəşkəs rejimini 100 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Noyemberyan rayonunun Dovex kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Cəfərli, Qaymaqlı və Kəmərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Nəmirli, Şıxlar, Mərzili, Şirvanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Horadiz, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

## Qoşunların qarşıdurma xəttində monitorinq keçirilib



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, aprelin 5-də Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfindən şəxsi nümayəndənin səhra köməkçiləri Piter Şvedberq, Saymon Tiller və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun rəhbəri polkovnik Hans Lampalzer keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Mixail Olaru, Gennadi Petrika və Yüksək Səviyyəli Planlaşdırma Qrupunun nümayəndəsi polkovnik-leytenant Patrik Farrelli aparıblar.

## Ermənistan silahlı qüvvələrinin bölmələri yaşayış məntəqəmizi atəşə tutub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhədə vəziyyəti yenidən gərginləşdirməyə cəhd edir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, aprelin 6-da günorta saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri 60 millimetrlik minaatanlardan istifadə etməklə Tərtər rayonunun Qapanlı kəndini atəşə tutublar. Atəş nəticəsində mülki əhalinin şəxsi təsərrüfatına ziyan dəyib.

Silahlı Qüvvələrimizin bölmələri tərəfindən dərhal həyata keçirilən cavab tədbirləri nəticəsində düşmən susdurulub, itki yoxdur.

## Milli Qəhrəmanlarımız

# "Murad Vətənin övladıdır"



Qəhrəmanlıq bir anda yaşanır və bir anda baş verir. Fransız sərkərdəsi Napoleon deyirdi ki, döyüşərkən ölənləri qəhrəman edən onların ölümləri deyil, ölümlərinin səbəbləridir. Böyük türk şairi Hüseyn Nihal Atsız qəhrəmanlığı belə vəsf edirdi:

*Qəhrəmanlıq nə yalnız*
*bir yüksəliş deməkdir,*
*Nə də ulduzlar kimi*
*parlayıb sönməkdir,*
*Bunun üçün ölümə*
*bir atılış gərəkdir,*
*Atıldıqdan sonra*
*bir daha dönməməkdir.*

Ordumuzun aprel qələbələri Azərbaycanın müstəqillik tarixində hər zaman şərəflə xatırlanacaq.

Aprel döyüşlərinin qəhrəmanları sırasında Rauf, Samid, Elnur, Murad, Ruhin ... var. Azərbaycanın Milli Qəhrəmanı Murad Mirzəyev döyüşdə göstərdiyi şücaəti və igidliyi ilə Azərbaycan zabiti adına şan-şöhrət gətirdi.

Qısa arayış... Murad, 1976-cı ildə Sabirabad rayonunun Muğamgəncəli kəndində dünyaya göz açıb. Tale onu 1991-ci ildə indiki C.Naxçıvanski adına Hərbi Liseyə gətirib çıxarır. Murad bu təhsil ocağını əla qiymətlərlə başa vurub, ali hərbi təhsil alır.

NATO kurslarında təcrübəsini artıran M.Mirzəyev xidmət etdiyi illərdə Azərbaycan Silahlı Qüvvələrinin ən peşəkar və yüksək hazırlıqlı zabitlərindən biri kimi qiymətləndirilir. Xidmət etdiyi dövrdə o, müxtəlif təltif və mükafatlara layiq görülür: iki dəfə "Hərbi xidmətdə fərqlənməyə görə" medalı, iki dəfə "Qüsursuz xidmətə görə" və üç dəfə "Azərbaycan Silahlı Qüvvələrinin yubiley medalı" ilə. M.Mirzəyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı misilsiz qəhrəmanlıq göstərərək şəhid olur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə ölkəmizin ərazi bütövlüyünün qorunub saxlanmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi şəxsi igidliyə görə polkovnik-leytenant Mirzəyev Murad Telman oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

M.Mirzəyevin iki yadigarı - oğlu Nurlan və qızı Dəniz bu Vətənə əmanət olunub.




Aprelin 4-də Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Mətbuat Şurası və Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin birgə layihəsi əsasında hazırlanmış, yazıçı-publisist Bəxtiyar Qaracanın "Bitməyən müharibənin qəhrəmanları" silsiləsindən "Muradına çatmayanlar; apreldən əvvəl və sonra" sənədli filminin təqdimatı keçirilib. Qeyd edək ki, film aprel döyüşlərində şəhid olan Azərbaycanın Milli Qəhrəmanı polkovnik-leytenant Murad Mirzəyevə həsr olunub. Filmin məsləhətçisi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənovdur.

Təqdimat mərasimində Milli Məclisin deputatları, kütləvi informasiya vasitələrinin nümayəndələri, şəhid qəhrəmanın ailə üzvləri, döyüş yoldaşları və digər qonaqlar iştirak ediblər.

Mərasimdə giriş nitqi ilə çıxış edən Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov Murad kimi oğulların qəhrəmanlığının vətənpərvərlik nümunəsi olduğunu qeyd edərək bildirdi ki, aprel döyüşləri Azərbaycan xalqının tarixində mühüm rol oynayıb, torpaqların bir qarışının da düşmən tapdağı altında qalmayacağına xalqın inamını daha da gücləndirib. "Bu döyüşlər eyni zamanda Azərbaycan Ordusunun, doğrudan da, regionda ən güclü ordu olduğunu göstərdi və əsgərlərimizdə döyüş əhval-ruhiyyəsini yüksəltdi. Bu, həm də Ermənistan rəhbərliyinə bir mesaj idi".

Sonra film nümayiş olundu.

ATXƏM-in sədri İlham İsmayılov Murad Mirzəyevin döyüş yolundan və aprel savaşının əhəmiyyətindən danışdı. O bildirdi ki, Murad Mirzəyev və digər qəhrəmanların keçdiyi yol gənc nəsillərə geniş təbliğ olunmalıdır: "Bu qəhrəmanlar haqqında orta məktəb dərsliklərində istifadə olunmalı və şagirdlərə tədris edilməlidir. Çünki, Murad Mirzəyev və aprel qəhrəmanlarının döyüş yolunun öyrənilməsi gənclərdə vətənpərvərlik ruhunun yüksəlməsi baxımından çox önəmlidir. Nə qədər ki, Murad Mirzəyev kimi qəhrəmanlarımız var, Azərbaycan mütləq işğal altındakı torpaqlarını azad edəcək".

Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin diaspor-la iş sektorunun müdiri Qafar Əliyev isə çıxışında qeyd etdi ki, aprel döyüşləri Azərbaycanda milli ruhun yüksək səviyyədə olduğunu göstərdi. "Azərbaycan Ordusunun əldə etdiyi uğurlar hamımıza ruh yüksəkliyi verir. Belə filmlər çox çəkilməlidir ki, xalqımızın milli vətənpərvərlik ruhu daim yüksək olsun. Bu, bizi qələbəyə aparan yoldur".

Təqdimat mərasimi millət vəkillərinin, media nümayəndələrinin və digər qonaqların çıxışları ilə davam edib.

Milli Məclisin deputatları Hikmət Məmmədov, Elman Nəsirov, Musa Qasımlı, Qənirə Paşayeva Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, Beynəlxalq Avrasiya Mətbuat fondunun sədri Umud Rəhimoğlu, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, Azərbaycan Milli QHT Forumunun prezidenti Rauf Zeyni və başqalarının çıxışlarında da aprel döyüşlərinin əhəmiyyətindən bəhs olundu.

Sonda Milli Qəhrəmanın atası Telman Mirzəyev çıxışında qeyd etdi ki, Vətən yolunda şəhid olanlar heç zaman unudulmayacaq. "Murad tək mənim yox, bu Vətənin övladıdır. Bütün şəhidlərimiz mənim balalarımdır. Təki Vətən yaşasın".

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

## Hərbi ənənələr, yeniliklər



# "Spayk" raket kompleksi

"Spayk" İsrailin çoxfunksiyalı tankəleyhinə raket kompleksləri ailəsinə aiddir. "Rafael" şirkəti tərəfindən hazırlanıb. Hazırda bir çox ölkələrin silahlanmasına qəbul edilib. Bir raketin qiyməti 200.000 dollar təşkil edir.

"Spayk" raket kompleksi tankların, mühəndis və istehkam tikililərinin məhv edilməsi üçün nəzərdə tutulub. 1998-ci ildə İsrail ordusunun silahlanmasına qəbul edilən bu silahdan müxtəlif qoşun növlərində istifadə edilir. Tankəleyhinə raket avtonom olaraq özütuşlama prinsipi ilə işləyir. Buraxılma trayektoriyası üzrə raket saniyədə 130-180 metr sürətlə hərəkət edir. Uzaqlığı 0,4-8 kilometrdir. Zireh deşməyə qadirdir.

"Spayk"ın müxtəlif seriyalarından ordunun müxtəlif məqsədləri üçün istifadə edilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş kikboksinq turniri keçiriləcək



"Milli Qəhrəman Çingiz Qurbanovun rəşadəti gənclərdə döyüş ruhu və mübarizə əzmini daha da gücləndirib. Təkbətək döyüş növləri arasında xüsusi yeri olan kikboksinq isə əsl döyüşçü xarakterinin formalaşmasına xidmət edir. Buna görə də peşəkar kikboksinqçilərin qəhrəman şəhidimizin xatirəsinə həsr olunmuş turniri keçirməyi qərara aldıq".

Gənclər və İdman Nazirliyinin dəstəyi, Dünya Kikboksinq Təşkilatları Assosiasiyası (WAKO), Kikboksinq Federasiyası və "Judo Club 2012" idman klubunun birgə təşkil etdiyi turnir aprelin 12-də Milli Qəhrəman Çingiz Qurbanovun doğulub boya-başa çatdığı Qusar rayonundakı Olimpiya İdman Kompleksində keçiriləcək. Ölkəmizin peşəkar kikboksçuları qalib adı uğrunda 7 çəki dərəcəsində yarışacaqlar.

Turnirin qaliblərinə müvafiq diplom və pul mükafatı təqdim olunacaq.

## "Azəravtoyol"un nümayəndəsi Əbu-Dabidə Beynəlxalq Triatlon Çempionatının qalibi olub



"Azəravtoyol" ASC-nin Yolların İstismarı Proqramı layihəsində Texniki Dəstək üzrə məsləhətçi, 74 yaşlı Robert Butler Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən Beynəlxalq Triatlon Çempionatında ən yaşlı iştirakçı olaraq birinci yerə layiq görülüb.

R.Butler bu nailiyyəti 1500 metr məsafəyə üzməklə, 40 kilometr məsafəni velosipedlə qət etməklə və 10 kilometr məsafəyə qaçmaqla əldə edib. O, bunu 70 yaşdan yuxarı iştirakçılar arasında 2 saat 56 dəqiqə 17 saniyə göstəricisi ilə yerinə yetirməyə müvəffəq olub. Bu nəticə ilə 60 yaşdan yuxarı iştirakçılar arasında isə 11-ci olub.

R.Butler 2009-cu ildə, 66 yaşında Avstriyada keçirilən analoji beynəlxalq yarışda dayanmadan 12 saat ərzində 3,8 kilometr məsafəni üzərək, 180 kilometr məsafəni velosipedlə və 42 kilometrlik məsafəni qaçaraq qət etməyə müvəffəq olub.

## Sərbəst güləşçilərimiz ilk beşlikdə qərarlaşıblar



Dünya Güləş Birliyi 2017-ci ilin martında keçirilən yarışların yekunlarına əsasən, reytinq cədvəlini açıqlayıb.

Sərbəst güləşçilərimizdən 16 nəfər reytinq siyahısında yer alıb. Onlardan yeddisi öz çəki dərəcələrində ilk onluğa, beşi isə ilk beşliyə daxil ola bilib.

Rio Yay Olimpiya Oyunlarının gümüş medalçıları Toğrul Əsgərov (65 kq) və Xetaq Qazyumov (97 kq), bürünc medalçı Cəbrayıl Həsənov (74 kq) reytinqdə ikinci sırada qərarlaşıblar. Olimpiadanın bürünc medalçısı Hacı Əliyev (61 kq) və qeyri-Olimpiya çəki dərəcəsində dünya çempionatının bürünc medalçısı Əhmədnəbi Qvarzatilov (61 kq) reytinq siyahısında dördüncü olublar.

Onluğa daxil olan digər güləşçilərimiz isə Aslanbek Alborov (97 kq) və Cəmaləddin Məhəmmədovdur (125 kq).

**AZƏRTAC-ın materialları əsasında**

Miçman Əliyev Nazim Baloğlan oğluna 2016-cı ildə verilmiş şəxsi vəsiqə və buraxılış vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 126
Nüsxə 4650